# Bakıda kitab bayramı

## IV Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasından reportaj











**Sentyabrın 16-dan etibarən Əl Oyunları İdman Sarayında IV Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası öz işinə başlayıb. Sərgi-yarmarkanın təşkil edilməsində əsas məqsəd nəşriyyatların buraxdığı məhsulların nümayiş etdirilməsi, satışının həyata keçirilməsidir. Eyni zamanda xarici dövlətlərin nəşriyyatları, müəlliflər və milli nəşriyyat-poliqrafiya müəssisələri ilə danışıqlar aparılıb, müqavilələr bağlamaq imkanı yaradılır. Dünən Əl Oyunları İdman Sarayına baş çəkib sərginin gedişi ilə maraqlanmaq qərarına gəldik.**

Sərgiyə daxil olarkən "Gənclər kitab oxumur" fikrinin əksini görmək mümkün idi. Çünki sərgi iştirakçıları daha çox gənclər idi. Hər bir stendin yanında gənc oxucuları gördük. Bəzi stendlər sadəcə olaraq kitabları nümayiş etdirsələr də, bəzilərində olan kitabları əldə etmək də mümkün idi. Kitabları sərgi iştirakçıları üçün hər bir stenddə endirimli qiymətlərlə təqdim edirdilər.

### SƏRGİ MARAQLILIĞI İLƏ DİQQƏTİ ÇƏKİR

İlk olaraq Milli Aviasiya Akademiyasının kitabxanasının stendinə yaxınlaşdıq. Kitabxanaçı Mirvari Cəfərova deyir ki, onların nümayiş etdirdikləri kitablar satılmır: "Bu cür sərgilərin keçirilməsi həqiqətən böyük əhəmiyyət kəsb edir. Sərgi maraqlılığı ilə diqqəti çəkir. Gənclər gəlib kitablarla maraqlanırlar. Kitablar tarix boyu mədəni, iqtisadi, siyasi əlaqələrin genişlənməsinə şərait yaradır. Ona görə də belə tədbirlərin keçirilməsini yüksək qiymətləndirmək lazımdır. Ən çox maraqlananlar gənclərdir. O gənclər ki aviasiya ilə maraqlanırlar, yaxud ikinci ixtisas olaraq bu sahəni seçmək istəyirlər. Bizdə əsasən aviasiyaya aid kitablardır. Kitablarımızı burada nümayiş etdiririk. Əldə etmək istəyənlər akademiyaya müraciət edə bilərlər".

### UŞAQLAR ÜÇÜN 1000-DƏN ÇOX ÇEŞİDDƏ KİTAB

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının stendinin qarşısında isə daha çox valideynləri gördük. Onlar uşaqları üçün maraqlandıqlarını bildirdilər. Kitabxananın kütləvi işlər şöbəsinin müdiri Leyla İbrahimova bizimlə söhbətində dedi ki, 1000-ə yaxın kitabla sərgiyə qatılıblar: "Bütün yaş qruplarından olan uşaqların oxuya biləcəyi kitablarımız var. Nağıllar, dərsliklər, uşaqlar üçün jurnallarımız var. Bizdə satış yoxdur, nümayiş etdirdiyimiz kitabları uşaqlar kitabxanamızda oxuya bilərlər. Gəlib maraqlananlar çoxdur. Onlar kitabxanamızın qonağı olacaqlarını bildirirlər".

### "KİTAB KLUBU"

"Kitab klubu" stendində isə nümayiş etdirilən kitabları almaq da mümkündür. "Kitab klubu"nun əməkdaşı Səfərov Zəfər deyir ki, onlar oxucularımızın tapmaqda əziyyət çəkdikləri kitabları nəşr edirlər. Ona görə də stenddə təqdim olunan kitablarla maraqlananlar çoxdur: "Biz yayım, nəşriyyat, mətbəə işləri ilə məşğul oluruq. Məqsədimiz Azərbaycan kitablarının ölkədə və dünyada təbliğ olunmasıdır. İstənilən müəllif əsərini bizə təqdim edə bilər. Biz onu facebook səhifəmizdə, saytımızda yerləşdiririk. Sərgiyə hardasa 100-ə yaxın kitabla qatılmışıq. Sorğular aparırıq və bazarda oxucularımızın əldə etməkdə çətinlik çəkdikləri kitabları tapıb, nəşr edib onların ixtiyarına veririk. Biz burada kitablarımızı endirimli qiymətlə sərgi iştirakçılarına təqdim edirik. Başqa vaxt 5 manata olan kitablar sərgidə 3 manata satılır".

Müsahibim deyir ki, bu cür sərgilər kitab satışı ilə məşğul olanlar üçün böyük şans yaradır: "Biz 2003-cü ildən fəaliyyət göstərsək də, elə insanlar var ki, ilk dəfədir bizim haqqımızda eşidirlər. Vizit kartımızı götürürlər, kitab alırlar. Tələbələr daha çox maraq göstərirlər. Gənclərin kitab oxumamağı ilə bağlı şikayətlər edilsə də, sərgiyə gələnlər daha çox gənclərdir".

### TÜRKİYƏ ƏDƏBİYYATI

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası sərgiyə bir çox çeşiddə kitablarla qatılıb. Kitabxananın Türkiyə ədəbiyyatı ilə bağlı stendinə yaxınlaşdıq. Milli kitabxananın aparıcı kitabxanaçısı Ələkbərova Pərvanə bildirdi ki, burada sırf Türkiyə ilə bağlı əsərlər nümayiş olunur. Kitablar isə satılmır: "Türkiyənin Ankara Milli Kitabxanasının kitabları bizim stenddə nümayiş olunur. Bu kitabları sərgi vasitəsilə oxucularımıza tanış edirik. Sərgidə nümayiş olunan kitablar 10 gün sonra M.F.Axundov adına kitabxanada oxucuların ixtiyarına veriləcək. Hardasa 142 kitab var. Tarixi, fəlsəfi, bədii, dini və s. mövzularda kitablarımız var. Maraqlananlar çox olur. Biz onları kitabxanamıza dəvət edirik".

### SƏRGİDƏN KİTAB ALANLAR

Qucağı kitabla dolu sərgidən çıxan Məhbubə Ramazanova təəssüratlarını bizimlə bölüşdü. Deyir ki, kitabların sərgidəki qiyməti sərfəli olduğu üçün alıb: "Burada əslində həm yeni kitablarla tanış oldum, həm də axtardıqlarımı tapdım. Pulum yetən qədərini aldım. Axtardıqlarımdan bəzi kitablar isə satışda deyildi. Onları da gedib kitabxanada oxuyacam. "Mən kitab xəstəsiyəm" yaza da bilərsiz. Çünki məncə, burdan qucağında bu qədər kitabla çıxan başqa adam yoxdur".

Nəzrin Əliyeva isə hələ ki sərgidə kitablarla tanış olduğunu deyir: "Mən kitab oxumağa maraqlıyam. Daim gözlərim yeni kitab gəzir. Amma bu dəfə öz dərslərimə uyğun olanlarla maraqlanıram. Çünki onların alınması vacibdir. Amma yəqin ki maraq dairəmə uyğun olan başqa bir-iki kitab da alacam".

Yelmar Cavadov da kitab alan sərgi iştirakçılarındandır. O, sərgini bütün kitabları bir araya yığdığı üçün bəyəndiyini deyir: "Burada bütün nəşriyyatlar öz kitablarını toplayıblar. Ona görə mənə rahatdır ki, nəşriyyatların hamısının yenilikləri ilə bir məkanda tanış ola bilirəm. Hələ ki iki kitab almışam. Amma stendləri gəzirəm, ola bilər başqalarını da alım".

### SƏRGİNİN ELEKTRON STENDİ

Yeni yazarlar və sənətçilər qurumunun sədri, kitabxana.net portalının rəhbəri Aydın Xan Əbilovun əyləşdiyi stendə yaxınlaşıb sərginin gedişi ilə bağlı maraqlandıq. O deyir ki, sərgi-yarmarka insanlarımızda kitaba, intellektə, prioritet düşüncəyə marağın getdikcə artdığını göstərir: "Hətta sevindirici hal odur ki, sərgi iştirakçılarının böyük əksəriyyəti gənclərdir. Əvvəllər gənclər ya əyləncəyə meyil ediblər, ya da universitetlərdə keçirilən müxtəlif elmi sahələrə aid kitabları oxuyublar. Amma indi bu tendensiya aradan qalxır. Artıq gənc, yeni və orta nəslin nümayəndələri oxumağa, kitabla bağlı sərgilərə maraq göstərirlər. Yeni yazarlar və sənətçilər qurumu olaraq biz də kitabxana.net virtual kitabxananın təqdimatını burda aparırıq. Eyni zamanda elektron təhsil və Azərbaycan multikulturalizminin sosial media və gənclər arasında yayılmasına dair layihələrin təqdimatını təşkil etmişik".

A.X.Əbilov deyir ki, əvvəllər insanlar daha çox poeziya ilə maraqlanırdılarsa, indi daha çox elmi, intellektual, kulturoloji, dünya ədəbiyyatı və digər zehni inkişafa səbəb olan kitablarla maraqlanırlar. O, eyni zamnda bildirdi ki, ildən-ilə sərgilərə maraq artır: "Builki sərgidə həm ölkədaxili, həm də qonaq ölkələrin nəşriyyatlarının sayı artıb. Məni maraqlandıran müxtəlif universitetlərin kitabxana və nəşriyyatları, o cümlədən dünya jurnallarının, nəşriyyatlarının Azərbaycandakı nümayəndəliklərinin də burada iştirak etməsidir. Bu çox önəmlidir. Çünki təcrübə mübadiləsi aparırıq və yaxşı cəhətləri götürə bilirik".

Qeyd edək ki, bu gün sərgi öz işini yekunlaşdıracaq. Arzu edənlər saat 18.00-dək Əl Oyunları İdman Sarayına baş çəkə bilərlər.

**Aygün Asimqızı**